# Dil və qrammatika

**Nərmin Arif qızı Əhmədova**
*Azərbaycan Dillər Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**E-mail:** narmin_arif@yahoo.com

**Rəyçilər:** filol.ü.f.d., dos. C.M. Babayev,
filol.ü.f.d., dos. S.B. Mustafayeva

**Açar sözlər:** dil, qrammatika, mahiyyət, deskriptiv, preskriptiv, universal
**Ключевые слова:** язык, грамматика, сущность, описательный, предписывающий, универсальный
**Key words:** language, grammar, essence, descriptive, prescriptive, universal

Dilin mənşəyi və təbiəti haqqında bilmədiyimiz çox şey var. Dəfələrlə bildirilmişdir ki, dilçilik elminin qarşısında duran ən vacib məsələlərdən biri dilin mənşəyi və təbiəti ilə bağlı bir cavabın tapılmasıdır. Tarix boyunca dilin tədqiqatları və danışıq dillərinin təhlilləri Mesopotamiyada eramızdan əvvəl 1600-cü ilə təsadüf edir. Həmin vaxtdan bəri dil barədə çox şey deyilib (1, s. 23). Dillər barədə elmi-nəzəri ədəbiyyatda saysız-hesabsız faktlara rast gəlirik. Məsələn:

1. Dil insan mövcud olduğu vaxtdan mövcuddur.
2. "İlkin" dillər yoxdur; bütün dillər bəşəriyyətin hər hansı bir qabiliyyəti göstərmək bacarığından yaranan sirli və mürəkkəb bir sistemdir. Hər hansı bir dilin lüğəti yeni fikirlər üçün yeni sözləri daxil etməklə genişləndirilə bilər.
3. Bütün dillər vaxtaşırı dəyişikliyə məruz qalır.
4. Danışıq dilindəki səslər və onların ifadə etdiyi mənalar arasındakı əlaqə birin birə nisbətində deyildir. Dil işarələrinin ixtiyari olmasını F.de Sössür birmənalı şəkildə sübut etmişdir (2, s. 158).
5. Bütün insan dilləri müəyyən bir diskret səslərdən (yaxud jestlərdən) istifadə edir ki, bunlar da sözləri, yaxud mənalı elementləri formalaşdırmaq üçün birləşir. Həmin toplanmış cümlələr özləri də mümkün cümlələrin xeyli miqdarını təşkil edir.
6. Bütün mövcud qrammatikalar sözlərin və cümlələrin yaranması üçün qaydalardan ibarətdir.
7. Hər bir danışıq dilinə /p/, /n/, yaxud /a/ kimi diskret seqment səslər daxildir. Həmin səslər akustik və artikulyator xüsusiyyətlərin, yaxud keyfiyyətlərin müəyyən ölçülü yığımından yaranır (7, s. 86).
8. Oxşar qrammatik anlayışlar (məsələn, isim, feil və s.) bütün dillərdə mövcuddur.
9. "Kişi", yaxud "qadın", "canlı", yaxud "insan" və s. kimi semantik universalilər dünyadakı bütün dillərdə mövcuddur.
10. Hər bir dildə keçmiş zamana aid olma, inkar, sual, əmr formaları və s. kimi xüsusiyyətlər vardır.
11. Bütün dillərdə danışanlar küllü miqdarda anlaşılan cümlələr qurmağı bacarır. Sintaktik unversalilər müəyyən edir ki, hər bir dilin cümlələr yaratmaq xüsusiyyəti vardır.

*/Məsələn, dilçilik maraqlı fəndir//*
*/Mən bilirəm ki, dilçilik maraqlı fəndir, sən bilirsən ki, mən bilirəm ki, dilçilik maraqlı fəndir//*
*/Sahilə bilir ki, sən bilirsən ki, mən bilirəm ki, dilçilik maraqlı fəndir//*

*¿Bu faktdırmı ki, Sahilə bilir ki, sən bilirsən ki, mən bilirəm ki, dilçilik maraqlı fəndirmi?*

Dünyanın istənilən yerində doğulan istənilən normal uşaq irqindən, coğrafiyasından, sosial, yaxud iqtisadi mirasından asılı olmayaraq doğulduğu mühitdə dili öyrənməyi bacarır. Dillər arasında rast gəldiyimiz fərqlər bioloji səbəblərə əsaslanır. Biz hamımız "insan dilində" danışırıq (5, s. 23).

Bizim hamımız ən azı bir dillə tam olaraq tanışıq. Danışanlar nitqlərində "mümkün" cümlələrin sonsuz birləşmələrini anlamaq və yaratmaq üçün sonu olan (yəni müəyyən miqdarda olan) qaydalara əsaslanan cümlələri yaradır. Bu cümlələri təşkil edən qaydalar dilin qrammatikasını yaradır. Bu qrammatika insana dili "əldə edəndə" (öyrənəndə) öyrədilir. Öyrədilən qrammatikaya fonem sistemi (fonologiya), morfologiya, sözlərin cümlələrdə və söyləmlərdə birləşməsini əks etdirən sintaksis, səslərin və mənaların birləşməsini öyrənən semantika və sözlərin yığımını təşkil edən leksika daxildir. Bu sözlərin tərkibindəki səslər və onların mənaları əsası olmayan üslubla əlaqələndirilir. Bu halda dil, səsləri mənaları ilə əlaqələndirən sistemdir və kimsə dili bilirsə, bu sistemi də bilmək məcburiyyətindədir (6, s. 56).

Bu bilik, linqvistik səriştə davranışdan, linqvistik performansdan fərqlidir. Əgər kimsə bir səhər yuxudan oyansa və danışmağı qərara alsa, bu onun da dil biliyinin mövcud olması anlamına gəlmir. Bu qabiliyyət, yaxud kompetensiya linqvistik davranışı önə çəkir. Əgər kimsə dili bilmirsə, onda o, danışa bilməyəcəkdir, lakin əgər kimsə dili bilirsə, bu halda o şəxs özü istədiyi halda həmin dildə danışmaya da bilər. Hər hansı bir dildə normal danışmaq və yazmaq üçün bizə mütləq qrammatika kömək edir. Adətən dilçilikdə qrammatikanın 3 növünü fərqləndirirlər.

1. Deskriptiv qrammatika danışanın qeyri-şüuru biliyinin, yaxud qabiliyyətinin göstəricisidir. Bu növ qrammatika hər bir dildə danışanın istifadə etdiyi "mental qrammatika" modelidir. O, dilin qrammatikasını öyrətmir; o, artıq məlum olan qaydaları təsvir edir (8, s. 129).

2. Bizə dilin qanunlarını öyrədən digər qrammatika preskriptiv qrammatika adlanır. Preskriptiv qrammatika təsvirlə məşğul deyildir (8, s. 128).

3. Dilçilər minlərlə dünya dillərini öyrəndikcə, tədqiq etdikcə, həmçinin onların bir-birindən fərqlənmə yollarını araşdırdıqca, dillər arasındakı fərqliliklərin məhdud olması barədə çox məsələləri müəyyən edərək üzə çıxarırlar. Bu baxımdan, qrammatikanın bütün hissələrinə məxsus olan linqivistik universalilər mövcuddur, həmin universalilər qaydaların formalarını və hissələrini əlaqələndirir. Bu qaydalar universal qrammatikadan ibarətdir. Bu qrammatika mümkün olan bütün insan dillərinin xüsusi qrammatikasının əsasını formalaşdırır (9, s. 75).

Dilin mahiyyəti haqda danışdıqda, qeyd edək ki, əgər dil sadəcə ünsiyyət vasitəsi kimi müəyyən olunursa, o halda dil bütün insanlar üçün unikal deyildir. İnsan dilinin elə xüsusiyyətləri vardır ki, onlara digər canlıların ünsiyyət sistemində də rast gəlmək olar. İnsan dilinin əsas xüsusiyyəti onun yaradıcı aspektinin olmasıdır. Yaradıcı aspekt və ya qabiliyyət dedikdə danışanın "yaxşı formalaşdırılmış" qrammatik cümlələrin sonsuz yığını olan linqivistik birləşmələrin əsasını təşkil edən qabiliyyəti nəzərdə tutulur. Danışanın qurduğu bu cür "yaxşı formalaşdırılmış" cümlələr əvvələr nə eşidilmiş, nə də qurulmuşdur.

İndi isə dilə yiyələnmə ilə bağlı bəzi faktları nəzərdən keçirək. Kar uşaqların dil öyrənmək faktı onu göstərir ki, səsi eşitmək və ifa etmək qabiliyyəti dil öyrənmək üçün zəruri olan ilkin şərt deyildir. Eyni zamanda, insan dilinin səslərini yamsılamaq qabiliyyəti dil öyrənmək üçün yetərli əsas hesab edilmir. "Danışan quşlar" səsləri yamsılayır, lakin bu səsləri onlar, nə kiçik hissələrə ayıra bilir, nə də onları yamsılayarkən həmin səsləri başa düşür, nə də öz fikirlərini ötürmək, çatdırmaq üçün yeni nitq ifa edə bilirlər (11, s. 105).

Quşlar, arılar, hörümçəklər, balıqlar və bir çox digər canlılar bəzi yollarla ünsiyyət qura

bilir, lakin ötürülən məlumat kəskin şəkildə məhdudlaşdırılır, o, stimulyönlü olur və kiçik ismarıclarla sərhədlənir. Dildə mövcud olan sistem dolaşıq mental qrammatika ilə təqdim olunur. Bu qrammatika stimulyönlü deyil və sonsuz məlumatlar yarada bilir və bu da insan üçün unikal hesab edilir.

Dilin mənşəyi ilə bağlı mənbələri araşdırarkən, dilin Allah tərəfindən insanlara bəxş edilmiş nemət olması faktı dünyada mövcud olan dinlərdə və dini mənbələrdə əks olunmuşdur. Dilin möcüzəvi gücünə davamlı inancın olması bu məfhumla bağlıdır. Dilin müqəddəs mənşəyinin ehtimalı ilk ibtidai dilin kəşfinə olan böyük marağı formalaşdırır (12). Əks iddia isə dilin insan kəşfi olması ilə bağlıdır. Yunanlar inanırdılar ki, qədim "hökmdar" (yaxud əmr edən hökmdar) bütün əşyaların adını vermişdir. Digərləri isə ehtimal edirdilər ki, dil "təbiətin hökmləri" ilə yaranmışdır (12).

Bütün bu iddialar sınaqdan çıxarıla bilən iddialar deyildir. Dilçilərin, təkamülü öyrənən bioloqların və nevropatoloqların birgə səyləri ilə zaman-zaman bu qarışıq sual cavablanır. Lakin yenə də bu cavab sınaqdan keçirilməyən, tam əsaslandırılmayan cavab olaraq qalmaqdadır. Çünki dilçilik tədqiqlərinin tarixi boyunca biz istifadə etdiyimiz dilin təbiəti, mahiyyəti haqqında bilmədiyimiz çox şeyin olduğunu anlayırıq və zamanla müşahidə edirik (13, s. 125).

Dilin mənşəyi və mahiyyəti barədə fikirləri və konsepsiyaları nəzərdən keçirməzdən əvvəl, "ontologiya" barədə araşdırmaların aparılmasına ehtiyac hiss edilir. "Ontologiya" termini, müasir dövrümüzdə, elmi ədəbiyyatda süni biliklər, mühəndislik, maşın tərcüməsi, informasiya ötürülməsi, leksik semantika və bir sıra əlaqəli sahələrdə işlənir (14).

Dilin ontoloji aspektindən danışmazdan əvvəl ontologiya sözünün mənasını izah etməyə ehtiyac duyulur. "Ontologiya" metafizika ilə əlaqədar fəlsəfi müzakirələr sahəsidir. "Ontologiya" sözü yunan mənşəli olub "mövcudluq haqda elm" və ya "mövcudluq haqda ümumi doktrina" anlamına gəlir (15).

Dilin ontoloji funksiyasına gəldikdə qeyd etmək lazımdır ki, dilçiliyinin nəzərində kommunikasiya müxtəlif plan və rakurslarda baş tutur. Ünsiyyətin adətən 2 əsas xüsusiyyətini qeyd edirlər, əsasən də neyroloji aspektin üzərində xüsusilə dayanırlar. Belə ki, neyronlar mənşəcə ünsiyyətlə deyil, davranışla əlaqə saxlayır və reaksiyalara cavab verirlər. Bu anda bioloji anlamda heyvan dilini ünsiyyət vasitəsi kimi başa düşməyə imkan verir. İnsanlar adətən düşünürlər ki, bu problemin əsası dilin vahidliyidir (10, s. 52). Bizcə, bu belə deyildir. Canlılara aid bir çox problemlər vahiddir: bipedalism və məməlilərdə bədən tükünün olmaması, yaxud görünən ağ hissəsi və s. Lakin, ünsiyyət dedikdə iki və daha artıq şüurun görüş arenası, dünyagörüşlərin dialoqu, dəyərlərin, üstünlüklərin, ideologiyaların mətn formatında reallaşması nəzərdə tutulur. Dil insanın spesifik özünü ifadə forması olaraq onun danışıq həyatının tarixi bir anında öz MƏNinin göstəricisidir (fikir, mənəvi və fiziki hal, arzu, reaksiya və s.). Neyropsixologiya və neyrolinqvistikanın təşəkkül tapmasından çox-çox əvvəllər filosoflar belə fikrə gəlmişlər ki, şüur dialoji xarakterə malikdir, danışıqda xalis MƏNin olması xarakterik bir haldır. Beləliklə, şüur və danışıq yaradıcılığı həmişə ünvanlanmış olur.

Dilçilikdə alimin elmi mövqeyi onun metodoloji prinsipləri vasitəsilə formalaşır və müəyyənləşdirilir. Metodoloji prinsiplər dedikdə dil və onun öyrənilməsi üsulları, subyekt və obyekt arasında qarşılıqlı əlaqə, elmi biliklərin yaranması üsulları və onlara baxışlar məcmusu başa düşülür (14).

Metodoloji prinsiplər əhəmiyyətli dərəcədə dilçi alimin fəaliyyətinin istiqaməti və xarakteri ilə, eləcə də tədqiqatın elmi nəticələri ilə şərtlənir. Elmi tədqiqatların nəticələrinin obyektivliyi və mötəbərliliyinə isə o halda etibar etmək olar ki, onlar fəlsəfənin və eləcə də dilçiliyin nailiyyətlərinə əsaslanmış olsun. Bu prinsiplərin obyektiv və mötəbərliyinə fəlsəfəyə əsasla-

nan dilçilik əsərləri iddia edə bilər. Məşhur dilçilərin – A.V.Bondarenko öz əsərlərində V.fon Humboldt, F.de Sössür, B.Kroçe, M.Baxtin, L.Vıqotski, A.Reformatski, Y. Lotman və s.-nin baxışlarındakı təkamülün təhlilini apararkən, bəzi müasir dilçilər bu qənaətə gəlmişlər (15).

Bəs, görəsən, xüsusi bir tədqiqat obyekti kimi dilin seçilməsi və məhdudlaşdırılmasına dair dilçilərin fikirləri nədən ibarətdir? Əvvəla, ilkin olaraq səs forması, ikinci olaraq isə yazı forması nəzərə çarpır. Səslənən nitqin öyrənilməsi – orijinal dil mövcudluğunun məğzi prioritet olmalıdır. N.İ. Jinkin bununla bağlı qeyd edir: "Paradoksaldır ki, dilçilər uzun müddət susan insanı tədqiq etmişlər" (16, s.12).

Dilin öyrənilməsinə yanaşmalar hələ V.fon Humboldt dövründə formalaşmağa başlamışdır: bunların arasında açar rolunu oynayan, "dilə vahid sistem kimi olan baxışlar" olmuşdur: dil orqanizminin təsviri üzərində canlı danışığın öyrənilməsi prioriteti: dilin təsvirini onun daxilindən deyil, həm də insan fəaliyyətinin digər mənəvi formaları ilə qarşı-qarşıya qoyulması, ələlxüsus da incəsənətlə: dilə fəlsəfi yanaşma və onun öyrənilməsinə incə (həssas) elmi yanaşma (17).

K.Fosslerə görə, "Dil nəsə bütöv və qarşılıqlı əlaqədə olan bir şeydir və əsas dilçilik fənni olmalıdır." Estetik idealizmin nümayəndəsi olan K. Fossler və onun digər həmkarları elmi problemi subyektiv-idealist nöqteyi-nəzərdən həll etməyə çalışmışlar və bu halda onlar dilin ekspressiv-estetik funksiyasını ön plana çəkmişlər (17).

K.Fosslerin əsərlərində dilə xalqın mənəvi və intellektual tarixindən ayrılmaz fasiləsiz yaradıcı mənəvi fəaliyyət kimi baxılır. K.Fossler fərdin nitqinin öyrənilməsi üçün yeganə real və ən mərkəzi obyekt kimi şəxsiyyətin mənəvi yaradıcılığını götürür ki, bu da onun intuisiya və xəyallarının ifadə vasitəsidir. Dilin mahiyyəti ilə əlaqədar olaraq, K.Fossler və estetik idealizm cərəyanının digər nümayəndələri dili mədəni-tarixi hadisə kimi qəbul edirdilər.

Dil nəzəriyyəsi öz problemləri ilə birgə dilin praktik mahiyyətini nəzərdə tutur və öyrənir. Dil vasitələrinin strukturunun öyrənilməsindən dil vahidlərinin seçiminin koqnitiv əsasları və prinsiplərinin (mətnin mənasını təqdim edən və izah edən) tədqiqinə keçid indi ümumi dilçilik nəzəriyyəsi qarşısında duran aktual məsələlərdən biridir və müasir dilçiliyin ən başlıca tendensiyalarından birini əks etdirir.

**Məqalənin aktuallığı.** Bütün təbii dillərdə qrammatik konstruksiyalar mövcuddur və həmin qrammatik konstruksiyaların forması və mənasının öyrənilməsi, dil və qrammatikanın əlaqəsi məqalənin aktuallığını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Qrammatikanın növlərinin müəyyənləşməsi, araşdırılması. Məqalənin elmi yeniliyindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə fərqləndirilən vasitələr tələbələr, müəllimlər, tədqiqatçılar və digərləri tərəfindən düzgün istifadəsinə yardımçı ola bilər

## Ədəbiyyat


1. Fromkin V., Rodman R. An İntroduction to Language. Boston, USA. 2014, 604 p.
2. Rəcəbov Ə. Dilçilik tarixi. Maarif, Bakı, 1987. 538 s.
3. Шпитцер Л. Словообразование как стилистический прием. Б.м., 1910; Метод Л. Шпитцера. //ВестникМГУ. Сер.7, 1962, № 5.
4. Veysəlli F.Y. German dilçiliyinə giriş. Təhsil NPM. Bakı, 2003, 410 s.
5. Almond P.C. Adam and Eve in Seventeenth-Century Thought. Cambridge: Cambridge University Press. 1999, p. 252.
6. Fotion N. Searle John. Princeton/Oxford: Princeton University Press, 2001, 256 p.

7. Koseriu E. Ümumi dilçiliyə giriş / alman dilindən tərcümə edəni fil.e.d., prof. F.Y. Veysəllidir). Bakı: Mütərcim, 2006.

8. Звегинцев В.А. Истории языкознания XIX-XX веков в очерках и извлечениях. Издательство «Просвещение» Москва, 1960. Часть 1. 329 стр.

9. Реформатский А. А. Введение в языковедение. М.: Аспент пресс, 1996, с. 275.

10. Almond P.C. Adam and Eve in Seventeenth-Century Thought. Cambridge: Cambridge University Press. 1999, p. 252.

11. Ackrill J.L. On Interpretation [De Interpretatione]. trans., in Barnes, ed., 1984.

12. Aarsleff H. Introduction, in W. Von Humboldt, On Language: The Diversity of Human Language-Structure and Its Influence on the Mental Development of Mankind, Cambridge: Cambridge University Press; 1988, pp.xxxiii-xxxiv.

13. Aarsleff H. 'Introduction' in Etienne Bonnot de Condillac, Essay on the Origin of Human Knowledge (H.Aarsleff, ed.and trans.), Cambridge: Cambridge University Press. 2001, p. 225.

14. www. Т. В. Симашко; Помор гос унт им. М. В. Ломоносова. Архангельск, 2001. 215 chttp://rudocs.exdat.com/docs/index538247. html? page=6. 9 pp.

15. www. Хованская Е. А.Исследование языковой способности: психолого-педагогический и методические аспекты. 2001. 14 с.

16. Жинкин Н.И. Язык - речь - творчество. Избранные труды. М.: Лабиринт, 1998, 368 с.

17. Фосслер К. Язык как творчество и развитие, СПб.: Лань, 1998.

**Н.А. Ахмедова**

## Язык и грамматика

### Резюме

В статье речь идет о языке и грамматике. В нем говорится, что мы многого не знаем о происхождении и природе языка. Неоднократно заявлялось, что одна из важнейших проблем, стоящих перед лингвистикой, - это найти ответ на происхождение и природу языка. В статье также были затронуты три вида грамматики, такие как описательная, предписывающая и универсальная.

**N.A. Ahmadova**

## Language and grammar

### Summary

The article deals with language and grammar. It states that there is much we do not know about the origin and the nature of the language. It has been repeatedly stated that one of the most important issues facing linguistics is to find an answer to the origin and the nature of the language. The three kinds of grammar such as the descriptive, the prescriptive and the universal have been touched upon in the article as well.

**Redaksiyaya daxil olub:** 27.11.2020